# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# S Ə R Ə N C A M

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 11 yanvar tarixli 3s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi üzrə Təşkilat Komitəsinin tərkibi”ndə dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 11 yanvar tarixli 3s nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2 nömrəli əlavə – “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi üzrə Təşkilat Komitəsinin tərkibi”nin “Təşkilat Komitəsinin üzvləri” bölməsində “Ələm Bağırov-Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri” sözləri “Sahir Rüstəmov-Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri” sözləri ilə, “Ceyhun Cəlilov-Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri” sözləri “Fərid Bağırzadə-Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən” sözləri ilə, “Elxan Nəcəfov-Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən” sözləri “Elxan Nəcəfov-Naxçıvan Muxtar Respublikasının təhsil naziri” sözləri ilə əvəz edilsin və həmin bölmədən “Mənşur Gülməmmədli-Naxçıvan Beynəlxalq Hava Limanının direktoru;” sözləri çıxarılsın.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “ 4 ” iyun 2024-cü il

№ 51s